İCBARİ
TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ

# COVID-19 xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn növbənin götürülməsinə dair təlimat

1. Covid peyvəndinin aparılması üçün randevu götürülməsi məqsədi ilə ilk öncə hər hansı bir internet brauzerindən yeni səhifə açıb [randevu.its.gov.az](randevu.its.gov.az) adresinə daxil olunur (Şəkil 1).

Şəkil 1




2. Açılan pəncərədən **“COVİD-19 vaksin randevu”** seçimi kliklənir (Şəkil 2).

Şəkil 2




3. Açılan səhifədən vətəndaş şəxsiyyət vəsiqəsinin seriyasını, nömrəsini və FİN məlumatını daxil edib **“Yoxla”** düyməsini klik edir (Şəkil 3).

Şəkil 3



4. **“Tibb müəssisəsi”** bölməsindən vaksinasiya aparılan məntəqənin adını həm ünvana, həm də məntəqə adına görə axtarmaqla seçim edilir (Şəkil 4).

Şəkil 4




5. Məntəqə seçimindən sonra peyvənd olunacaq tarix və saat seçilir, həmçinin məlumatlandırma üçün mobil nömrə qeyd olunur. Daha sonra CAPTCHA xanası qeyd edilir və **“Təsdiq et”** düyməsi sıxılır (Şəkil 5).

Şəkil 5



6. Təsdiq düyməsi sıxıldıqdan sonra seçilən vaxt və məntəqə haqqında məlumat ekranda bildiriş formasında əks olunur, həmçinin qeyd edilən mobil nömrəyə SMS vasitəsi ilə bildiriş göndərilir (Şəkil 6).

Şəkil 6




**Qeydlər:**

1. Vətəndaş qeyd edilən randevu vaxtını və ya məntəqəni dəyişmək istədikdə göstərilən prosesi yenidən icra etməlidir;
2. İlk dəfə randevu götürən şəxs ikinci dəfə randevunu dəyişmək istədikdə əvvəlki vaksinasiya randevuları ləğv edilib yenisi ilə əvəz edilir;
3. Vaksinasiyanın ilk dozası üçün randevu götürüldükdə avtomatik 2-ci doza üçün də 28 gün sonra həmin müəssisəyə və həmin saat aralığına randevu seçilir;
4. Seçilən məntəqədə randevu limiti dolan tarix və ya saat aralıqları passiv edilir və seçilməsi mümkün olmayacaqdır;
5. Bu təlimat formasının və dəyişikliklər olduqda yeni təlimat formasının əldə edilməsi üçün (i) İstifadəçi təlimatı seçimindən keçid edə bilərsiniz.

İcbari Tibbi Sığorta
üzrə Dövlət Agentliyi

03.02.2021